**İqtisadi Tədqiqatlar Mərkəzi**

26 mart 2012-cu ild’ “İqtisadi  Tədqiqatlar Mərkəzi” İctimai Birliyi üzvlərinin Qurultayı keçirilib. Qurultayın gündəliyinə “İqtisadi Tədqiqatlar Mərkəzi” İctimai Birliyinin  Nizamnaməsinə dəyişikliyin edilməsi məsələsi daxil edilib.  Müzakirələrdən sonra təklif olunan dəyişiklik – birliyin hüquqi  ünvanının dəyişməsi məsələsi yekdilliklə qəbul olunub. Qərar alınıb ki,  “İqtisadi Tədqiqatlar” İctimai Birliyinin Nizamnamənin 1.5-ci bəndinə  aşağıdakı redaksiyada dəyişikliklər edilsin: “Birliyin yerləşdiyi  ünvan:  Bakı şəhəri, Əhməd Rəcəbli küçəsi 5a, mənzil 82”.

Birliyin 10 aprel 2012-cu ildə keçirilən qurultayında isə mərkəzin idarə  heyəti və nəzarət-təştiş komissiyası sədrlərinin hesabatı dinlənilib,  nəzarət-təftiş komissiyasının 3, idarə heyətinin isə 7 nəfərdən ibarət  yeni tərkibi və sədrləri seçilib. Artıq təşkilatın qanuni təmsilçisi  Qalib Toğruldur.

Qeyd olunan dəyişikliklərin Qeyri-kommersiya Qurumlarının və Təhsil  Müəssisələrinin Dövlət Reyestrinə salınması üçün Birlik tərəfindən  müvafiq sənədlər Ədliyyə Nazirliyinə təqdim olunub. 30 aprel 2012-ci  ildə dəyişikliklər dövlət reyestinə salınaraq Ədliyyə Nazirliyi  tərəfindən Birliyə rəsmi çıxarış təqdim olunub.